# EMİN SABİTOĞLU

# ƏLVİDA

Səs və fortepiano üçün mahnılar

# EMİN SABİTOĞLU

## ƏLVİDA

Səs və fortepiano üçün mahnılar

ŞƏRQ-QƏRB
BAKI 2017

Emin Sabitoğlu. Əlvida. Səs və fortepiano üçün mahnılar
Bakı, "Şərq-Qərb", 2017, 256 səh.

ISBN 978-9952-477-16-0

Tərtibçi və ön sözün müəllifi: Ceyran Mahmudova
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının
professoru, musiqişünas

ŞƏRQ - QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

© "Şərq-Qərb", 2017



# Mündəricat


Ön söz ........ 6
Əlvida ........ 10
Nə gözəldir Azərbaycan ........ 16
Sahildə ........ 20
Layla ........ 27
Gilavar ........ 34
Dərələr ........ 39
Nə olar ........ 46
Axtar sən məni ........ 51
Dön, yenə dön ........ 55
Çay ........ 60
Sənin üçün ........ 69
Bəlkə də ........ 73
Ağ çiçək ........ 77
Nərminin mahnısı ........ 82
Ayrılma məndən ........ 91
Bakı, sabahın xeyir! ........ 96
Təkcə ümid qalsın ........ 102
Qəlbimdə qaldın ........ 107
Özümdən küsürəm ........ 112
Şirin dil ........ 116
Çiçək yağışı ........ 120
Belə ola həmişə ........ 124
„Gün keçdi“ k/f-dən mahnı ........ 129
„Gün keçdi“ k/f-dən mahnı ........ 132

Zaman ....................................................137
Bura Qafqazdır ....................................................141
Kəpənək ....................................................147
Azərbaycan ....................................................151
Eylədi ....................................................156
Vətən bayatıları ....................................................160
Dağlar ....................................................165
Nə gözəldir ....................................................169
Bu gecə ....................................................174
Heç xəbərin yoxdu sənin ....................................................178
Uzaq yaşıl ada ....................................................182
İnsaf da yaxşı şeydi ....................................................186
Gənclik nəğməsi ....................................................190
Sən bağışladın ....................................................194
Sən olmuşam ....................................................199
Nə danışdın, nə dindin ....................................................203
Güllər ....................................................206
Gözümdə Leylisən ....................................................211
Sən mənim deyilsən ....................................................217
Neçin gəlmədin ....................................................221
Olmasın ....................................................226
Can, Azərbaycan ....................................................231
Şükruyyə ....................................................235
Gəncədən gəlirəm ....................................................240
Payız gəldi ....................................................243
Neyləyim ....................................................247

# ÖN SÖZ

Ötən əsrin 60-cı illəri Azərbaycan incəsənətinin inkişafında haqlı olaraq çiçəklənmə dövrü hesab edilir. Bu həmin illər idi ki, ədəbiyyatda, rəssamlıqda, kino sahəsində yetişmiş yeni nəsil sovet dönəminin "ılıq" nəfəsinin təsiri altında sənətdə ilk addımlarını inamla atırdı.

Azərbaycanın musiqi həyatı maraqlı və rəngarəng idi. Q.Qarayev, C.Hacıyev, F.Əmirov, S.Hacıbəyov və bir sıra digər bəstəkarlar yaradıcılıqlarının ən parlaq anlarını yaşayırdı. Bir-birinin ardınca yeni milli simfoniyalar, opera və baletlər yazılır, kino və teatr premyeraları baş tuturdu. Ədəbiyyat sahəsində R.Rza, M.İbrahimov, İ.Qasımov, S.Rəhimov, M.Paşayev, B.Vahabzadə, N.Xəzri, İ.Əfəndiyev və bir çox başqa ediblərin yeni roman və povestləri, pyesləri, poema və şeir kitabları ictimaiyyət arasında maraqla qarşılanır, qızğın müzakirələrə səbəb olurdu.

Azdramada (indiki Milli Dram Teatrında) Ədil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov kimi rejissorların tamaşaları, teatr salnaməmizin ən parlaq ulduzları – Ələsgər Ələkbərov, Hökümə Qurbanova, Leyla Bədirbəyli, İsmayıl Osmanlı və adları bir vərəqə belə sığışmayacaq bir çox gözəl, əvəzolunmaz aktyorlar nəsli öz çıxışları ilə teatrsevərlərin tələbkar zövqünü oxşayırdı.

Məhz bu illərdə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasını uğurla bitirən gənc bəstəkar Emin Mahmudov Vətənə dönür və bu ucsuz-bucaqsız incəsənət məkanında öz yolunu axtarmağa başlayır. Arxada Moskvada təhsil aldığı illər, qarşıda isə onu hələ aydın sezilməyən yaradıcılıq yolu gözləyirdi. Lakin Emin Mahmudovun həyat və yaradıcılığını daha yaxşı anlamaq üçün 24 il əvvələ, 1937-ci ilin payızına qayıtmaq lazımdır.

Mahmudov Emin Sabit oğlu 1937-ci il noyabrın 2-də Bakı şəhərində anadan olmuşdur. Atası – yazıçı-dramaturq Sabit Kərim oğlu Mahmudov (Sabit Rəhman), anası Mahmudova İsmət Mahmud qızı – ixtisasca kimyaçı, BDU-nin kimya fakültəsinin məzunu idi. Uşaqlıq illərindən Emin musiqiyə böyük maraq göstərirdi. Bu həvəs Eminə atasından irsən keçmişdi. Gələcək bəstəkarın babası Kərim kişi XX əsrin əvvəllərində Şəkidəki evlərinə royal almışdı. Sabit Rəhman hələ uşaq ikən həmin royalda çalmağı özü öyrənərək, müasirlərinin xatirələrinə görə, notsuz olsa da, gözəl ifa edirdi.

Balaca Emin də həyatının ilk günlərindən musiqi sədaları eşidəndə, körpəyə xas olmayan reaksiya verərək, ona diqqətlə qulaq asırdı. 7 yaşında o, Bülbül adına orta ixtisas musiqi məktəbinə fortepiano sinfi üzrə qəbul olunur (professor Kövkəb Səfərəliyevanın sinfi), 14 yaşından Midhəd Əhmədovun bəstəkarlıq sinfində ilk əsərlərini yazmağa başlayır. Onun peşə seçimi də getdikcə müəyyənləşir.

1954-cü ildə E.Mahmudov Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə (Qara Qarayevin sinfinə) daxil olur. 1956-61-ci illərdə təhsilini P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında (Y.Şaporinin bəstəkarlıq sinfində) davam etdirmişdir.

Moskvanın musiqi həyatı rəngarəng və maraqlı idi. Konsert salonlarında ən məşhur musiqiçilərin konsertləri, tanınmış aktyor və müğənnilərin iştirakı ilə tamaşalar – bütün bunlar sonradan teatr və kino musiqisinə yaranan böyük marağın başlanğıcı idi. Təməli Sabit Rəhman tərəfindən qoylmuş ənənələrdən irəli gəlirdi. Moskvada təhsil aldığı illərdə ilk əsərlər də yaranır və onların arasında ilk mahnılardan biri – uşaqlıq dostu Vaqif Səmədoğlunun sözlərinə yazılan "Bəlkə"...

Moskvada oxumasına baxmayaraq, Emin Azərbaycan musiqisində baş verən proseslər, yeni yaranan əsərlərlə də yaxından maraqlanır. Leninqradda (indiki Peterburqda) dahi müəllimi

Qara Qarayevin "İldırımlı yollarla" baletinin premyerasının olacağını eşidəndə, dərhal qatara bilet alıb bu möhtəşəm baletin ilk tamaşasında iştirak etmək üçün Leninqrada gedir. Moskvada təhsil aldığı illərdə bəstəkarın dinlədiyi konsert və tamaşaların proqramları hələ də onun şəxsi arxivində saxlanılır.

1959-cu ildə E.Mahmudov çox sevdiyi şairlərdən biri – Nazim Hikmətin sözlərinə bir neçə romans bəstələyir. Bu romanslar vaxtilə gələcək bəstəkarın böyük uğuru kimi qəbil edilmişdi. Dostu Anar xatirələrində yazır: "1959-cu il. Bakı. Emin Nazim Hikmətin sözlərinə yazdığı romansları böyük şairin özünə çalır. Mahnıları diqqətlə, həyəcanla dinləyən Nazim Hikmət "Mərhaba, şəkərim, – deyir – "Dəniz" mahnını dinlərkən dalğaların qoxusunu duydum". Konservatoriyada oxuduğu illərdə o, Skripka və fortepiano üçün Poema, Sonatina və digər əsərlər bəstələyir.

Nəhayət, 1961-ci ildə E.Mahmudov Moskva Dövlət Konservatoriyasını bitirir. Onun diplom işi olan Simfoniya Konservatoriyanın Böyük zalında keçirilmiş konsertdə səslənir və böyük müvəffəqiyyət qazanaraq "əla" qiymətə layiq görülür. Sonradan həmin əsər doğma Bakıda da ifa olunur və musiqisevərlər tərəfindən böyük maraqla qarşılanır.

E.Mahmudovun ilk iş yeri musiqi redaktoru vəzifəsində çalışdığı C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası olmuşdur. Onun kino sahəsindəki ilk addımları da məhz bu vaxta təsadüf edir – bir sıra sənədli, mənzərə və qısametrajlı filmlərə musiqi yaranır. Bu, bəstəkara kinonun spesifikasını daha yaxından öyrənməyə imkan verir. Ümumiyyətlə, kino sənətinə olan maraq onu bütün həyatı boyu neçə-neçə müxtəlif səpkili filmlərə musiqi yazmağa vadar edir.

Sonrakı illərdə bəstəkar Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri (1967–68-ci illər) işləmiş, bundan sonrakı illərdə və ömrünün sonunadək öz fəaliyyətini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası ilə bağlayır. Konservatoriyada dərs dediyi ilk illərdə Q.Qarayevin assistenti, sonradan ardıcıl olaraq müəllim, dosent və professor kimi çalışır.

Bu dövrdə E.Mahmudovun yaradıcılıq dairəsinin əsas istiqamətləri müəyyən edilir. 1965-ci ildə Emin atası Sabit Rəhmanın Azərbaycan Dövlət Akademik Dram Teatrında tamaşaya qoyulan "Yalan" pyesinə musiqi yazır (əsərin premyerası 1966-cı ildə olur. C.M.). Bu, bəstəkarlıq yolunda təzə addımlayan gənc üçün yeni sənət təcrübəsi idi. Onu da qeyd edək ki, tamaşanın rejissoru görkəmli teatr xadimi Tofiq Kazımov idi. O, əsərin səhnə quruluşunda bir sıra maraqlı tapıntılarla istər tamaşaçılar, istərsə də tənqidçilərin diqqətini cəlb edə bilmişdi.

"Yalan" tamaşasının ilk quruluşu bir neçə məqamları ilə əlamətdar idi. Bu ata və oğul – Sabit Rəhman və Eminin birinci birgə yaradıcılıq təcrübəsi, digər tərəfdən, Emin Sabitoğlunun teatr tamaşasına yazdığı ilk musiqi idi. Və, nəhayət, rejissor Tofiq Kazımovla birinci iş birliyi olmuşdur. Sonradan bu əməkdaşlıq həm yaradıcılıq, həm də insani münasibətlər baxımından möhkəm dostluğa çevrilir, T.Kazımovun bir sıra tamaşalarının musiqisini E.Sabitoğlu yazır. Onların sırasında İ.Əfəndiyevin "Unuda bilmirəm" və "Məhv olmuş gündəliklər", B.Vahabzadənin "Yağışdan sonra" və başqalarının adlarını çəkmək olar.

70-ci illərin əvvəllərində bu tendensiya öz uğurlu davamını tapdı. Emin Mahmudov atası ilə daha iki əsər üzərində işləyir. Bu, yenə də Milli Dram Teatrı üçün yazılan "Küləklər" pyesi və "Hicran" operettası idi. Taleyin hökmü ilə bu əsərləri səhnədə görmək Sabit Rəhmana nəsib olmadı. "Küləklər"in premyerası yazıçının ölümündən bir ay sonra, "Hicran" operettasının ilk tamaşası isə 1973-cü ildə baş tutdu. Ümumiyyətlə, "Hicran" bəstəkarın operetta janrında ilk və uğurlu təcrübəsi hesab olunmalıdır.

E.Mahmudovun mahnı janrına olan marağı daha da artırdı. Belə ki məhz bu dövrdə onun artıq gənc bəstəkar kimi tanınmasına səbəb olan mahnıları – "Dərələr", "Ağ çiçək", "Sənin üçün" (sözləri Nəbi Xəzrinindir) yaranır. Bəstəkar bu mahnılara görə 1968-ci ildə Respublika Lenin Komsomolu Laureatı fəxri adına layiq görülür. Sənətə yeni qədəm qoyan bəstəkar üçün

bu böyük uğur idi. Beləliklə, demək olar ki, artıq 60-cı illərin sonunda onun yaradıcılığının əsas istiqamətləri müəyyən edilir.

Sabit Rəhmanın 1970-ci ildə vəfatından sonra bəstəkar özünə Emin Sabitoğlu təxəllüsünü götürmüşdür. "Hicran"ın böyük maraqla qarşılanması onu gələcəkdə də musiqili komediya janrına müraciət etməyə vadar edir. Belə ki o, ümumilikdə 9 musiqili komediyanın müəllifidir. Onların sırasında "Nəğməli könül" (libretto X.Hasilovanındır), "Hələlik" (libretto R.Əhmədzadənindir), "Qırmızı papaq" (uşaqlar üçün – libretto L.Kolmanovskinindir), "Bir dəfə Bağdadda" (libretto L.Kolmanovskinindir), "Bankir adaxlı" (libretto T.Vəliyevanındır) və digərlərinin adları çəkilə bilər.

Emin Sabitoğlunun kino sahəsindəki fəaliyyəti də diqqətəlayiqdir. O, ümumilikdə 22 tammetrajlı bədii filmə, çoxlu sayda mənzərə, sənədli və qısametrajlı filmlərə musiqi bəstələyib (filmlərin ümumi sayı 40-dan artıqdır). Onun işlədiyi rejissorlar arasında H.Seyidbəyli, Ş.Mahmudbəyov, A.Babayev, T.Tağızadə, R.Ocaqov, Anar, V.Mustafayev və başqalarının adlarını çəkmək olar. Musiqi yazdığı filmlər arasında "Bizim Cəbiş müəllim", "Gün keçdi", "Dədə Qorqud", "Ad günü", "İstintaq", "Vahə od içində", "Dantenin yubileyi", "Ölsəm, bağışla", "Təhminə", "Həm ziyarət, həm ticarət", "Yaramaz", "Bəyin oğurlanması", "Onun bəlalı sevgisi" və digərilərinin adlarını çəkmək olar. Adı çəkilən rejissorlar arasında Rasim Ocaqovla Emini möhkəm şəxsi dostluq telləri bağlayırdı. Görkəmli rejissorun, demək olar ki, bütün filmlərinin musiqisini E.Sabitoğlu yazıb.

Bəstəkar ölkəmizin əksər teatrları, o cümlədən Sumqayıt, Şəki, Mingəçevir, Naxçıvan, Lənkəran, Gəncə teatrlarında səhnəyə qoyulan tamaşalara, o cümlədən M.F.Axundovun "Lənkəran xanının vəziri", S.Vurğunun "Fərhad və Şirin", S.Rəhmanın "Toy", "Xoşbaxtlar", "Aşnalar" və başqalarının, İ.Əfəndiyevin "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", B.Vahabzadənin "Yağışdan sonra", Anarın "Təhminə və Zaur", "Şəhərin yay günləri", "Adamın adamı", M.İbrahimbəyovun "Kərkədan buynuzu" və bir çox digər tamaşalara musiqi yazıb.

Digər tərəfdən, o, televiziya filmlərinə də da maraq göstərirdi. Anarın ssenarisi ilə çəkilən "Evləri köndələn yar" televiziya filmindəki musiqi, mahnılar tez bir zamanda populyarlaşmışdır. Ümumiyyətlə, E.Sabitoğlunun bəstəkarı olduğu səhnə və kino əsərlərinin əksəriyyətində instrumental musiqi parçaları ilə yanaşı, çoxlu sayda mahnılar da səslənirdi. Bunun da səbəbi, zənnimizcə, rejissorların onun parlaq melodiyalar yaratmaq bacarığına bələd olaraq, mahnı vasitəsilə quruluşa rəng qatmaq, onu zənginləşdirmək istəyindən irəli gəlirdi.

Emin Sabitoğlu yaradıcılığının böyük hissəsini, məlum olduğu kimi, mahnı janrı təşkil edir. O, bir çox məşhur Azərbaycan şairlərinin sözlərinə mahnı bəstələmişdir. Onların sırasında Səməd Vurğun, Əhməd Cavad, Bəxtiyar Vahabzadə, Rəsul Rza, Zeynal Cabbarzadə, Nəbi Xəzri, Nigar Rəfibəyli, Ramiz Heydər, Nəriman Həsənzadə, Zeynal Xəlil, Gəray Fəzli, Fikrət Qoca və bir çox başqalarının adlarını çəkmək olar. Vaqif Səmədoğlunun sözlərinə yazılan mahnıların sayı, şairin özünün dediyinə görə, 100-dən artıqdır.

Bəstəkarın mahnıları, demək olar ki, bu sahənin bütün istiqamətlərini əhatə edir. Burada doğma Azərbaycana həsr edilən mahnılar – "Azərbaycan" (sözləri B.Vahabzadənindir), "Can, Azərbaycan" (sözləri Ə.Cavadındır), "Nə gözəldir Azərbaycan" (sözləri İ.Kəbirlinindir), "Vətən bayatıları" (sözləri bayatılar), ölkəmizin müxtəlif şəhərlərinə həsr edilən mahnılar – "Bakı, sabahın xeyir!" (sözləri İ.Səfərlinindir), "Gəncədən gəlirəm" (sözləri Ə.Cavadındır), "Şəki" (sözləri B.Vahabzadənindir), "Neftçala" (sözləri H.Abbasındır), "Daşkəsən", "Yeni Gəncəm" (sözləri N.Həsənzadənindir), əmək qəhrəmanlarına həsr edilmiş mahnılar – "Çoban Boran" (sözləri H.Abbasındır), "Muğanın tacı" (sözləri S.Sərxanlınındır), "Qəhrəman Fərman" (sözləri Ə.Vəkilindir), "Mübarək olsun" (sözləri Ş.Aslanındır) və başqalarını göstərmək olar.

Lakin bəstəkarın yaradıcılığında ən böyük və əhəmiyyətli yer, sözsüz ki, onun lirik səpkili mahnılarına məxsusdur. Ə.Cavadın sözlərinə "Şükriyyə", N.Rəfibəylinin sözlərinə "Neyləyim" və "Yadıma səni salanda", V.Səmədoğlunun sözlərinə "Çiçək yağışı" və "Uzaq yaşıl ada", Nəbi Xəzrinin sözlərinə "Ağ çiçək", Z.Xəlilin sözlərinə "Bu gecə", G.Fəzlinin sözlərinə "Sən olmuşam", Anarın sözlərinə "Düşürsən yadıma" və "Əlvida" və bir çox başqa, müxtəlif illərdə fərqli şairlərlə əməkdaşlıq nəticəsində yaranan mahnılar bəstəkarın bütün yaradıcılığı boyu ən çox müraciət etdiyi janrın parlaq nümunələrinə çevrilmişdir.

Emin Sabitoğlunun mahnılarını dövrünün tanınmış müğənniləri səsləndirib. Onları Şövkət Ələkbərova, Gülağa Məmmədov, Zeynəb Xanlarova, Mirzə Babayev, Elmira Rəhimova, Yalçın Rzazadə, Flora Kərimova, İlhamə Quliyeva, Akif İslamzadə, Hüseynağa Hadıyev, "Qaya" və "Sevil" vokal qrupları və bir çox başqa müğənnilər ifa ediblər.

Bəstəkarın mahnı üslubunu təhlil edərkən, burada istər estrada, istərsə də xalq musiqisi üslubuna aid oluna bilən nümunələrə rast gəlmək mümkündür. O, universal bir bəstəkar olmaqla, hər iki istiqamətdə olduqca məhsuldar işləyirdi. E.Sabitoğlunun mahnılarının səciyyəvi xüsusiyyətlərindən biri kimi melodiyanın sadə, lakin ifadəli olmasını, harmonik zənginliyi, poetik mətnə xüsusi dəqiqliklə yanaşmanı göstərmək olar. Bəstəkarın mahnılarında poeziya ilə musiqi tam həmahənglik təşkil edir, mətndəki heca və məna vurğuları musiqidə dəqiqliklə tərənnüm edilir.

Emin Sabitoğlunun yaradıcılığı təkcə yuxarıda adları çəkilən musiqi janrları ilə məhdudlaşmırdı. O, simfoniya, iki kantata, iki simfonik süita, müxtəlif kamera-vokal əsərlər, o cümlədən Nazim Hikmət, Yunus Əmrə, Rəsul Rza, Abbas Səhhət, Ömər Xəyyam, Şah İsmayıl Xətai, digər Şərq şairlərinin sözlərinə silsilə romanslar, bir sıra digər əsərlərin müəllifi idi.

Bəstəkarın pedaqoji fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir. Artıq qeyd olunduğu kimi, o, 30 ildən çox Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında dərs deyərək, yeni nəsil musiqiçilərin tərbiyəsində yaxından iştirak edirdi. 1978-ci ildə "Dosent", 1994-cü ildə "Professor" adına layiq görüldü.

Emin Sabitoğlunun nailiyyətləri dövlətimiz tərəfindən də layiqincə qiymətləndirilmişdir. Belə ki o, 1978-ci ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi", 1987-ci ildə "Dövlət mükafatı", 1997-ci ildə "Şöhrət" ordeni və nəhayət, 2000-ci ildə "Azərbaycanın Xalq artisti" fəxri adına layiq görülmüşdür.

Bəstəkar 1994-cü ildən ömrünün sonunadək İstanbul Texniki Universitetinin Xalq Musiqisi konservatoriyasında dərs deyirdi. Tələbələrinə daim dünya musiqi örnəkləri ilə yanaşı, Azərbaycan bəstəkarlarının əsərlərini də tədris edir, onları milli musiqimizin ən yüksək bədii keyfiyyətlərə malik nümunələri ilə tanış edirdi. O, 2000-ci il noyabrın 18-də Bakıda vəfat etmişdir.

Hazırki məcmuədə bəstəkarın 50 mahnısı toplanmışdır. Onların əksəriyyəti müxtəlif illərdə çap olunsa da, "Əlvida", "Şükriyyə", "Can, Azərbaycan", "Gəncədən gəlirəm" və bir sıra digər mahnılar ilk dəfədir ki, musiqisevərlərin ixtiyarına verilir. Ümid edirik ki, bu məcmuə Emin Sabitoğlu yaradıcılığının pərəstişkarları üçün böyük hədiyyə olacaq.

# ƏLVİDA

**Moderato**

Sözləri Anarındır




*) Mahnı Pərviz Quliyev tərəfindən Rafiq Babayevin audio lent yazısından nota köçürülmüşdür.


mf
hər, hər ax-şam, hər gün-düz, hər ge-cə göz-lə-dim.
Əl-vi-
da o gün-lər, ul-duz-lu ge-cə-lər əl-vi - da,
öm-rüm-
mf
dən nə qal-dı, nə qal-dı və-fa-sız dün-ya-
da.
Əl-vi-


da o gün-lər, ul-duz-lu ge-cə-lər əl-vi - da, öm-rüm -
dim.
dən nə qal - dı, nə qal - dı, və - fa - sız dün - ya -
dim.
p
da.
6
mp
Gö-rüş -
dük nə çə-tin, ay-rıl- dıq... ay-rıl-dıq nə a - san, har-da -
mp


san hə-ya tım, var mı-san... var-mı-san, yox-mu-san.
Mən sə -
dim.
ni iz-lə-dim, gü-nah tək iz-lə-dim, giz-lə - dim,
Hər sə -
Più mosso
p
hər, hər ax-şam, hər gün-düz, hər ge-cə göz-lə - dim.
dim.
p
mf
5
3


A tempo
mf
Əl-vi-
da o gün-lər, ul-duz-lu ge-cə-lər əl-vi - da,
öm-rüm -
mf
dim.
ritenuto
dən nə qal - dı, nə qal - dı, nə qal - dı, və - fa - sız dün - ya -
dim.
ritenuto
p
da
dim.
p
morendo
ppp

Görüşdük nə çətin, ayrıldıq, ayrıldıq nə asan,
Hardasan, həyatım, varmısan, varmısan, yoxmusan?
Mən səni izlədim, günah tək gizlədim, gizlədim,
Hər səhər, hər axşam, hər gündüz, hər gecə izlədim.

Əlvida, o günlər, ulduzlu gecələr, əlvida,
Ömrümdən nə qaldı, nə qaldı vəfasız dünyada?

Görüşdük nə çətin, ayrıldıq, ayrıldıq nə asan,
Hardasan, həyatım, varmısan, varmısan, yoxmusan?
Mən səni izlədim, günah tək gizlədim, gizlədim,
Hər səhər, hər axşam, hər gündüz, hər gecə izlədim.

Əlvida, o günlər, ulduzlu gecələr, əlvida,
Ömrümdən nə qaldı, nə qaldı vəfasız dünyada?

# NƏ GÖZƏLDİR AZƏRBAYCAN

Sözləri İbrahim Kəbirlinindir




-dir. E-lə tər-pən, e-lə dav-ran,
gö-rən de-sin: nə gö-zəl-dir, A - zər - bay -
1. 2.
can! can! A-ya-ğı-nı
yə-rə bərk bas, iz - lə - ri - ni dün - ya - ya yaz,


1.
ad - dı-mın-dan qop - sun tu - fan.
7
2.
fan.
rit.
rit.
A tempo
Gö-rən de- sin:
ne gö- zəl- dir A - zər - bay - can!
1.
2.
can!
f
son üçün
can!
pp

Hara getsən, göz sevindir,
Könüllər aç, ürək dindir.
Elə tərpən, elə davran,
Görən desin:
Nə gözəldir Azərbaycan!

Ayağını yerə bərk bas,
İzlərini dünyaya yaz,
Addımından qalxsın tufan.
Görən desin:
Nə gözəldir Azərbaycan!

Dağ başından çən enməsin,
Etibarın tükənməsin.
Dostluq barın dostluğundan
Görən desin:
Nə gözəldir Azərbaycan!

Bizim eldə sədaqət var,
Əsrlərdən əmanət var,
İnsan kimi insana yan.
Aləm görsün:
Nə gözəldir Azərbaycan!

Yolumuza günəş yağır,
Yolumuza dünya baxır.
Elə çalış, uzaqlardan
Səda gəlsin:
Nə gözəldir Azərbaycan!

Odla bərki, odla qarış,
Elə alış, elə sayrış,
Göz qamassın işığından.
Baxan desin:
Nə gözəldir Azərbaycan!

# SAHİLDƏ

Sözləri Rəfiq Zekanındır




su - la-rın ox - şa-sın sev-da - lı qəl - bi -
mi.
Piu mosso
mf
Nə qə - dər gö - zəl - dir,
sa-hi-lin sə-nin bu ax-şam.
Ay çı-xıb
ü - füq-dən, gö - rü - şə ye - nə çıx - mı-şam,
rit.


A tempo
bu ax- şam... Ü - rək-dən se - vi-rəm
i - şıq - lı sa - hil - lə - ri - ni. U - nut-maq
Piu mosso
o - lar- mı, ilk gö-rüş ye - ri - ni.


ff
sf p
cresc.
ff
Sə - ma - dan
ul - duz - lar,
ba - xa - raq gü - lüm -


sə - yir - lər:
Da - rıx - ma
10
3
ff
mf
rit.
sev - gi - lin
gə - lə - cək de - yir -
3
mf
rit.
p
lər,
de - yir - lər,
de - yir - lər..
p
A tempo
p
Lə - pə - lən,
ey Xə - zər,
lə - pə - lən xə - ya -
3
p


lım ki - mi, su - la - rın ox - şa - sın
pp
sev - da - lı qəl - bi - mi. su - la - rın
pp
rit.
ox - şa - sın sev - da - lı qəl - bi -
rit.
mi

Ləpələn, ey Xəzər,
Ləpələn xəyalım kimi,
Suların oxşasın
Sevdalı qəlbimi.

Nə qədər gözəldir,
Sahilin sənin bu axşam.
Ay çıxıb üfüqdən,
Görüşə yenə çıxmışam, bu axşam...

Ürəkdən sevirəm,
İşıqlı sahillərini.
Unutmaq olarmı,
İlk görüş yerini?

Səmadan ulduzlar,
Baxaraq gülümsəyirlər:
Darıxma, sevgilin
Gələcək deyirlər, deyirlər...

Ləpələn, ey Xəzər,
Ləpələn xəyalım kimi,
Suların oxşasın
Sevdalı qəlbimi.

# LAYLA

Sözləri Rəsul Rzanındır




Bax-ça-mın sün - bü-lü - sən. Gül do-da - ğın
3
gü-lən - də ney-lə yir-sən gü-lü - sən.
1.
2.
ney - lə-yir - sən gü - lü sən. Lay - la gü-lüm,
p
p
a lay - la, şi - rin dil-lim ay lay - la,


A lay - la, a lay - la. a lay -
la.
mf
fp
Gü - nəş - li gün - düz sə - nin, də - rə sə - nin düz sə - nin.
E - lə se - vinc gə - ti - rən bu xoş gü - nü -


f
müz sə - nin. Sən do - ğul - dun bəx - ti - yar,
f
be - şi - yi - nə gün do - ğar.
mf
Bö - yü hə - lə, ya - şa dol,
mf
rit.
nur - lu gə - lə - cə - yin var.
rit.


Recitativ
pp
Sən öm-rü- mün gü-lü-sən,
ten.
pp
bax - ça-mın sün - bü - lü - sən,
ten.
p
A tempo
p
Gül do-da - ğın gü-lən - də ney - lə yir - sən
sf
p
gü - lü - sən.
f
Sən öm - rü-mün gü - lü - sən,


p
bax-ça-mın sün-bü-lü - sən. Gül do-da-ğın
3
sf p
gü-lən-də ney-lə yir-sən gü-lü-sən. Lay-la gü-lüm
p
pp
a lay - la, şi-rin dil-lim ay lay - la,
A lay - la, a lay - la. a lay - la.

Gül açıldı çəməndə
Layla balam, a layla.
Könlün düşməz kəməndə,
Layla balam, a layla.

Nəqərat:
Sən ömrümün gülüsən,
Bağçamın sünbülüsən.
Gül dodağın güləndə
Neyləyirsən gülü sən.
Layla gülüm, a layla.
Şirin dillim, a layla.
A layla, a layla, a layla.

Günəşli gündüz sənin,
Dərə sənin, düz sənin.
Elə sevinc gətirən
Bu xoş günümüz sənin.

Sən doğuldun bəxtiyar,
Beşiyində gün doğar.
Böyü hələ, yaşa dol,
Nurlu gələcəyin var...

Nəqərat:
Sən ömrümün gülüsən,
Bağçamın sünbülüsən.
Gül dodağın güləndə
Neyləyirsən gülü sən.
Layla gülüm, a layla.
Şirin dillim, a layla.
A layla, a layla, a layla.

# GİLAVAR

Sözləri Rəsul Rzanındır




bu meh - ri - ban qoy - nu - na xoş gəl - mi -
sən, gi - la - var.
Nəqərat f
Fə - sil - fə -
sil də - yiş - dik - cə ha - va - lar,
kön - lü - mü - zə nəğ - mə de - sin ilk ba -


p
har. Sən də qo - şul bu nəğ - mə -
p
nin sə - si - nə,
ay gi - la - var,
ay gi - la - var,
mf
Sən də qo - şul
mf
bu nəğ - mə - nin sə - si - nə
p
ay gi - la -
p


1.
var. ay gi - la - var.
mf
8va
(8)
p
sf
2.
pp
Hər-dən xə - var, ay gi - la -
pp
rit.
var, ay gi - la - var.
rit.

Gəzib-gəzib dərələri, düzləri,
Nə durmusan, dincəlmisən, gilavar.
Vətənimin bu mehriban qoynuna
Xoş gəlmisən, gilavar.

Nəqərat:
Fəsil-fəsil dəyişdikcə havalar,
Könlümüzə nəğmə desin ilk bahar.
Sən də qoşul bu nəğmənin səsinə,
Ay gilavar, ay gilavar.

Hərdən xəyal bir qanadlı quş olur,
Həzin, coşqun nəğmələrə qoşulur.
Yüz möhnəti bir sevinclə əridər
İnsan ömrü xoş olar.

Nəqərat:
Fəsil-fəsil dəyişdikcə havalar,
Könlümüzə nəğmə desin ilk bahar.
Sən də qoşul bu nəğmənin səsinə,
Ay gilavar, ay gilavar.

# DƏRƏLƏR

Moderato

Sözləri Nəbi Xəzrinindir




mı - şıl - mı - şıl də - rə - lər. Də-rə-lər, də-rə-lər,
də-rə - lər, ya - şıl - ya - şıl də-rə - lər.


mı - şıl - mı - şıl də - rə - lər. Də-rə-lər, də-rə-lər,
də-rə - lər, ya - şıl - ya - şıl də-rə - lər.
f


də-rə - lər, o - vuc - o - vuc zər ə - lər.
f
Quş ki-mi üs - tü - nüz - də qa-nad ça-lım,
f
f
də - rə - lər.
ff
3
3
f
Şam-lıq-da bir
f


ax - şam - lıq qo - naq qa - lım, də - rə - lər.
Də-rə-lər, də-rə-lər, də-rə-lər, qo - naq qa - lım,
də-rə - lər. Siz-lər-dən yol-lar ke-çər.
Siz yax-şı ki, var - sı-nız. Zir-və-lə-rə


a - çı - lan ge - niş qa - pı - lar - sı - nız.
p
Də - rə - lər, də - rə - lər, də - rə - lər, ya - şıl, ya - şıl
p
də - rə - lər
pp
Də - rə - lər, də - rə - lər,
pp
də - rə - lər, ya - şıl, ya - şıl
rit.
də - rə - lər
rit.

Çinarlar qatar-qatar
Qalxıb zirvəyə çatar.
Dağa qısılıb yatar
Mışıl-mışıl dərələr.
Dərələr, dərələr, dərələr,
Yaşıl-yaşıl dərələr.

Sizlərə vurğunam mən
Bəzəyiniz şəfəqdən.
Günəş çıxar üfüqdən
Ovuc-ovuc zər ələr.
Dərələr, dərələr, dərələr,
Ovuc-ovuc zər ələr.

Quş kimi üstünüzdə
Qanad çalım, dərələr,
Şamlıqda bir axşamlıq
Qonaq qalım, dərələr.
Dərələr, dərələr, dərələr,
Qonaq qalım, dərələr.

Sizlərdən yollar keçər.
Siz yaxşı ki varsınız.
Zirvələrə açılan
Geniş qapılarsınız.
Dərələr, dərələr, dərələr,
Yaşıl-yaşıl dərələr.

# NƏ OLAR

Sözləri Zeynal Cabbarzadənindir




nə ü - çün kü - sür - sən hər qə - dəm ba -
şı? Sən ey ü - rə - yi - min
dos - tu, sir - da - şı, nə ü - çün
kü - sür - sən hər qə - dəm ba - şı?


Sü - zü - lür göz - lə - rin, ça - tı - lır qa -
şın.
Sü - zü - lür göz - lə - rin,
ça - tı - lır qa - şın.
Nəqərat
Mə - nim öz


gü - lüm - sən, şey - da bül - bü - lüm - sən. Mə - nim öz
gü - lüm - sən, şey - da bül - bü - lüm - sən. Gü - lüm - sən,
mf
gü - lüm - sən, şey - da bül - bü - lüm - sən. Gü - lüm - sən,
gü - lüm - sən, şey - da bül - bü - lüm - sən.
sf

Sən ey ürəyimin dostu, sirdaşı,
Nə üçün küsürsən hər qədəm başı?
Süzülür gözlərin, çatılır qaşın.

Nəqərat:
Mənim öz gülümsən,
Şeyda bülbülümsən.
Gülümsən, gülümsən,
Şeyda bülbülümsən.

Bütün bu aləm heyrandır sənə,
Hər görən söyləyir ceyrandır, sənə.
Qorxuram göz dəyər, amandır sənə.

Nəqərat:
Mənim öz gülümsən,
Şeyda bülbülümsən.
Gülümsən, gülümsən,
Şeyda bülbülümsən.

Azərbaycanımın coxdur gözəli.
Ey maral baxışlı, sözü məzəli,
Sən mənim yarımsan, ilkim, əzəlim.

Nəqərat:
Mənim öz gülümsən,
Şeyda bülbülümsən.
Gülümsən, gülümsən,
Şeyda bülbülümsən.

# AXTAR SƏN MƏNİ

Sözləri Nəbi Xəzrinindir




Ə-zəl-dən heç be-lə bil - məz - dim sə-ni.
Qəl-bim-də ilk ar-zu, ilk hə-vəs ol-dun.
Nəqərat
mf
Qış-da ba-har ki-mi, çox gəz-dim mən sə-ni.
mf
1.
Yaz gəl-di, qar ki-mi gö-rün-məz ol-dun.


2.
gö - rün - məz ol - dun
rit.
Tap - maz san mə - ni.
rit.

Əzəldən heç belə
Bilməzdim səni
Qəlbimdə ilk arzu
İlk həvəs oldun.

Qışda bahar kimi,
Çox gəzdim mən səni.
Yaz gəldi qar kimi
Görünməz oldun.

İllər ötüb-keçdi,
Arzular təki,
İndi səhər axşam
Axtar sən məni.

Qışda bahar təki,
Yazdasa qar təki,
Axtarsan nə qədər
Tapmazsan məni.

# DÖN, YENƏ DÖN

(„Dəniz“ kinofilmindən)

Sözləri Vaqif Səmədoğlunundur




Nəqərat
mf
De - yir-lər Xə-zər ha-nı, so - ru-şur sə-ni ha-mı?
Dön, ye-nə dön, ge-ri-yə dön.
1.
2.
dön, gə-ri-yə dön.
p
Gəl, ge-cə-lər rö-ya tək, Xə - zər, səs-lə -


nir il - lə - rin i - çin - dən gün - lər.
mf
De - yir - lər Xə - zər ha - nı, so - ru - şur sə - ni ha - mı?
mf
1.
2.
Dön ye - nə dön, ge - ri - yə dön. dön, ge - ri - yə
dön.
mf


p
De - yir - lər Xə - zər ha - nı, so - ru - şur sə - ni ha - mı?
p
1.
Dön ye - nə dön, ge - ri - yə dön.
2. rit.
dön, ge - ri - yə dön.
rit.

Dön, yenə dön geriyə, Xəzər,
Yolunu qayalar, qayalar gözlər.
Dedilər Xəzər hanı, soruşur səni hamı?
Dön, yenə dön, geriyə dön.

Qız qalası qocalır, Xəzər,
Qalanı gündüzlər turistlər gəzər.
Dedilər Xəzər hanı, soruşur səni hamı?
Dön, yenə dön, geriyə dön.

Gəl, gecələr röya tək, Xəzər,
Səslənir illərin içindən günlər.
Dedilər, Xəzər hanı, soruşur səni hamı?
Dön, yenə dön, geriyə dön.

# ÇAY

(„Azərbaycan çayı“ kinofilmindən)

**Allegro**

Sözləri Zeynal Cabbarzadənindir




f
Min bir dər- din dər - ma-nı
mf
çay, çay, çay, min bir dər- din dər - ma-nı
Nəqərat
f
çay, çay, çay... Ar - mu-du is - tə-kan - da
f
çay, ü - rə - yi- miz ya-nan - da


çay.
Dad - lı- san,_ ad - lı-san
çay, çay, çay.
Ə-tir - li- sən_ dad-lı-san
çay, çay, çay.


p
Hər kə - sə gəl - sə qo - naq,
p
la - zım de - yil so - ruş - maq.
1
gəl-sin ye-mək- dən qa- baq
çay, çay, çay.
2.
Gə - zir - lər so -


ra-ğın - da çay, çay, çay...
p
f
Ar - mu-du is - tə-kan - da çay,
ü-rə - yi- miz ya-nan - da çay.
Dad - lı san, ad - lı-san çay, çay, çay.


Ə-tir - li- sən dad-lı-san çay, çay, çay, e
f
hey!
f
f
A-dın gə-zir el - lə-ri,
f
ki-min yox - sa xə-bə - ri


Qoy çay iç - sin məx - mə-ri çay, çay, çay.
Qoy çay iç - sin məx - mə-ri çay, çay, çay.
p f
Ar - mu-du is - tə-kan - da çay,
p f
p
ü-rə - yi- miz ya-nan - da çay.
p f


Dad - lı - san, ad - lı - san çay, çay,
çay, Ə - tir - li - sən dad - lı - san, çay, çay,
çay. A pür - rəng çay, çay, çay, məx - mə - ri
çay, çay, çay, ə - tir - li çay, çay, çay.

Kimin ağrıyır canı,
Bol çay içsin mərcanı,
Min bir dərdin dərmanı
Çay, çay, çay...

Nəqərat:
Armudu istəkanda, çay,
Ürəyimiz yananda, çay.
Dadlısan, adlısan
Çay, çay, çay.
Ətirlisən, dadlısan
Çay, çay, çay.

Hər kəsə gəlsə qonaq,
Lazım deyil soruşmaq.
Gəlsin yeməkdən qabaq
Çay, çay, çay.

Qışın qarlı çağında,
Yayda gün qabağında
Gəzirlər sorağında
Çay, çay, çay...

Nəqərat:
Armudu istəkanda, çay,
Ürəyimiz yananda, çay.
Dadlısan, adlısan
Çay, çay, çay.
Ətirlisən, dadlısan
Çay, çay, çay.

Adın gəzir elləri,
Kimin yoxsa xəbəri.
Qoy çay içsin məxməri
Çay, çay, çay.

Nəqərat:
Armudu istəkanda, çay,
Ürəyimiz yananda, çay.
Dadlısan, adlısan
Çay, çay, çay.
Ətirlisən, dadlısan
Çay, çay, çay.

# SƏNİN ÜÇÜN

Sözləri Nəbi Xəzrinindir




ə-gər sən
sə-rin ya - ğış çi-lə-rəm
p
f
Çə - mən ol - san ə - gər sən
f
sə - rin ya - ğış çi - lə - rəm.


Ə-gər də-ni - zə dön-sən sa-hi - lə çev-ri - lə -
1.
rəm.
2.
rəm.
A
dim.
Son üçün
rit.

Qarlı bir zirvə olsan
Ağ buludun olaram.
Dərin xəyala dalsan,
Mən sükutun olaran.

Nəqərat:
Çəmən olsan əgər sən
Sərin yağış çilərəm.
Əgər dənizə dönsən,
Sahilə çevrilərəm.

Qovmusam dərdi, qəmi
Xoşbəxtin ilki mənəm.
Səslənsən nəğmə kimi,
Sözlərin bil ki, mənəm.

Nəqərat.
Məni susdursa zaman,
Səni özüm sanaram.
Səhər kimi oyansan,
Günəş kimi yanaram.

Nəqərat:
Çəmən olsan əgər sən,
Sərin yağış çilərəm.
Əgər dənizə dönsən,
Sahilə çevrilərəm.

# BƏLKƏ DƏ

Anarın "Keçən ilin son gecəsi" pyesindən




2.
f
A - pa - rır. Ay a - na, göz - lə -
f
rim qa - pa - nır. Gə - lə - rəm bu - lud -
p
lar ke - çən - də, Ay a - na, göz - lə -
p
rim qa - pa - nır. Gə - lə - rəm bu - lud -


p
lar ke - çən - də, bəl -
p
kə, bəl - kə, bəl - kə - də,
1.
bəl - kə, bəl - kə - də...
2.
bəl - də...

Aparır məni, vaxt aparır.
Könlündən, əlindən qoparır.
Ay ana, gözlərim qapanır.
Gələrəm, buludlar keçəndə
Bəlkə, bəlkə, bəlkə də...

Gələrəm, bu yaya gələrəm.
Yay ötsə, payıza gələrəm.
Nigaran qalmısan, bilirəm.
Gələrəm qaranquş gələndə.
Bəlkə, bəlkə, bəlkə də...

Çıxırlar dünyaya qatarlar,
Qatarlar min yerə çatarlar,
Hələ ki dünyada qatar var
Gələrəm vaqonlar ötəndə.
Bəlkə, bəlkə, bəlkə də...

Aparır məni, vaxt aparır.
Könlündən, əlindən qoparır.
Ay ana, gözlərim qapanır.
Gələrəm, buludlar keçəndə
Bəlkə, bəlkə, bəlkə də...

Gələrəm, bu yaya gələrəm.
Yay ötsə, payıza gələrəm.
Nigaran qalmısan, bilirəm.
Gələrəm qaranquş gələndə.
Bəlkə, bəlkə, bəlkə də...

Çıxırlar dünyaya qatarlar,
Qatarlar min yerə çatarlar,
Hələ ki dünyada qatar var
Gələrəm vaqonlar ötəndə.
Bəlkə, bəlkə, bəlkə də...

# AG ÇİÇƏK

Sözləri Nəbi Xəzrinindir




1.
dər-dik sə-ni ağ çi - çək!
2.
sər-dik sə-ni ağ çi - çək!
Nəqərat
f
Bir - dən bi - rə ağ əl - lər - də
Ağ əl - lər - də e - lə bil ki,
f
1.
tə - zə - ləş - din ağ çi - çək!


2.
ağ a - təş - in ağ çi - çək.
mf
Çi - çək, çi - çək, ağ çi - çə - yim,
mf
öm - rü - mə bə - zək, ağ çi - çə - yim!
Xor
mf
Çi - çək, çi - çək, ağ çi - çə - yim,
mf


öm - rü - mə bə - zək, ağ çi - çə - yim!
Son üçün
mf
Çi - çək, çi - çək, ağ çi - çə - yim,
mf
öm-rü-mə bə-zək, ağ çi-çə-yim, Çi-çək, çi-çək,
p
p
ağ çi-çə-yim, öm-rü-mə bə-zək, ağ çi-çə-yim!
ppp

Səhər çağı... Göy meşədən
Dərdik səni, ağ çiçək!
Bəyaz-bəyaz varaqlara
Sərdik səni, ağ çiçək.

Nəqərat:
Birdən-birə ağ əllərdə
Təzələsdin, ağ çiçək!
Ağ əllərdə elə bil ki
Ağ atəsdin, ağ ciçək!
Çiçək, çiçək, ağ çiçəyim,
Ömrümə bəzək, ağ çiçəyim!

Gördüm səni bu gün basqa
Bir çəməndə, ag çiçək!
Ağ əllərin hərarəti
Yoxmu səndə, ağ cicək!

Nəqərat:
Birdən-birə ağ əllərdə
Təzələşdin, ağ çiçək!
Ağ əllərdə elə bil ki
Ağ atəşdin, ağ ciçək!
Çiçək, cicək, ağ ciçəyim,
Ömrümə bəzək, ağ çiçəyim!

Soyuq-soyuq boylanırsan,
Söylə, necin, ağ cicək?
De, səndəmi həsrətlisən
Ağ əllərçin, ağ çiçək!

# NƏRMİNİN MAHNISI

(İ. Əfəndiyevin "Unuda bilmirəm" pyesindən)

Sözləri Əliağa Kürçalınındır




Yol - la - - rın - da sax - la-yan, sax - la-yan
sə - nin sə - da - qə - tin - dir.
f
mf
Tut - sun ər - zi du - man, çən,
mf
qar ol - - sun dö - zə - rəm mən.


Ü - rə - - yi - mi i - si - dən, i - si - dən
sə - nin hə - ra - rə - tin - dir.
gliss.
f
İs - tə - mi - rəm gül çi - çək,
f
öm - rün yo - lu daş kə - sək.


rit.
A tempo
İs - tə - mi - rəm gül çi - çək,
öm - rün yo - lu daş kə - sək.
p
Hər bə - la - ya dö - zə - cək, dö - zə - cək
p
sə - nin də - ya - nə - tin - dir.


Hər bə - la - ya dö-zə-cək, dö-zə-cək
sə - nin də - ya - nə - tin - dir.


cresc.
f
p
Nə - dir və - fa, e - ti - bar, e - ti - bar,
p
söz de sən, ar - tıq o - lar.
Mə - nim bu eş - qim ki, var eş - qim,


sə - nin ə - ma - nə - tin - dir.
gliss.
f
İs - tə - mi - rəm gül - çi - çək,
f
öm - rün yo - lu daş - kə - sək.
İs - tə - mi - rəm gül - çi - çək,


öm - rün yo - lu daş kə - sək.
p
Hər bə - la - ya dö - zə - cək, dö - zə - cək
p
f
sə - nin də - ya - nə - tin - dir
1.
2.
rit.
nə - tin - dir.
rit.

Məni sənə bağlayan, bağlayan
Eşqin, məhəbbətindir.
Yollarında saxlayan
Sənin sədaqətindir.

Tutsun ərzi duman, çən,
Qar olsun, dözərəm mən.
Ürəyimi isidən
Sənin hərarətindir.

İstəmirəm gül-çiçək,
Ömrün yolu daş-kəsək.
Hər bəlaya dözəcək
Sənin dəyanətindir.

Nədir vəfa, etibar,
Söz desən, artıq olar.
Mənim bu eşqim ki var,
Sənin əmanətindir.

İstəmirəm gül-çiçək,
Ömrün yolu daş-kəsək.
Hər bəlaya dözəcək
Sənin dəyanətindir.

# AYRILMA MƏNDƏN

Sözləri Ramiz Heydərindir.




çay - lar züm - zü-mə - siy - lə
bu - laq - lar göz ya - şıy - la
De-yir, de-yir,
mf
1.
de-yir, de-yir, ay - rıl - ma mən - dən
mf
Nəqərat
2.
f
dən
Keç - di-yim hər yol, cı -
f
ğır ba-xır, ar-xam - ça ba - xır.


Keç - di-yim hər yol cı - ğır,
ba-xır, ar- xam - ca ba - xır,
De-yir ay - rıl - ma mən
dən,
de-yir ay - rıl - ma mən-dən.


2.
p
dən
De-yir, de-yir,
de-yir, de-yir,
f
ay - rıl - ma mən - dən.
2.
dən.
son üçün
De-yir, de-yir,
de-yir, de-yir,
ay - rıl - ma mən - dən.
1.
2.
dən.

Bülbüllər nəğməsiylə,
Çaylar zümzüməsiylə
Deyir, deyir,
Deyir, deyir
Ayrılma məndən.

Çiçəklər baxışıyla,
Bulaqlar göz yaşıyla
Deyir, deyir,
Deyir, deyir
Ayrılma məndən.

Nəqərat:
Keçdiyim hər yol, cığır
Baxır, arxamca baxır.
Deyir, ayrılma məndən.
Deyir, deyir,
Deyir, deyir
Ayrılma məndən.

Meşələr lal məlallı
Dağlar fikir, xəyallı
Deyir, deyir,
Deyir, deyir
Ayrılma məndən.

Sanki gözəl təbiət
Ürəyində məhəbbət
Deyir, deyir,
Deyir, deyir
Ayrılma məndən.

Nəqərat:
Keçdiyim hər yol, cığır
Baxır, arxamca baxır.
Deyir, ayrılma məndən.
Deyir, deyir,
Deyir, deyir
Ayrılma məndən.

# BAKI, SABAHIN XEYİR

Sözləri İslam Səfərlinindir




gü - nəş qal - xır Xə-zər - dən...
Sev - gi - lim ke - çən yer - dən
bü - tün şə - hər ye - ri - yir.
Qa - yı - dıb xoş gü - zər - dən,
gü - nəş qal - xır Xə - zər - dən...
Sev - gi - lim ke - çən yer - dən
bü - tün şə - hər ye - ri - yir,


Ba - kı sa - ba - hın xe - yir, Ba - kı sa - ba - hın xe - yir,
pp
Ba - kı sa-ba-hın xe - yir, Ba - kı sa-ba-hın xe - yir.
8va
Nəqərat
f
Hö-rük-lə-rin qa-ra-dır, qaş-la-rın ay pa-ra-dır,
p
O bir a-ləm ya-ra-dır, ha - mı ü-rək-dən de -


yir.
Hö-rük-lə-rin qa-ra-dır,
qaş-la-rın ay pa-ra-dır,
o bir a-ləm ya-ra-dır,
ha - mı ü-rək-dən de - yir:
Ba - kı sa-ba-hın xe - yir,
Ba - kı sa-ba-hın xe - yir,


Ba - kı, sa-ba-hın xe- yir, Ba - kı, sa-ba-hın xe-yir,
ff
ha - mı ü-rək-dən de- yir, ha - mı ü-rək-dən de- yir:
ff
rit.
Ba - kı, sa-ba- hın xe- yir, Ba - kı, sa-ba- hın xe -
rit.
yir!
f accel.
ff

Qayıdıb xoş güzərdən,
Günəş qalxır Xəzərdən...
Sevgilim keçən yerdən
Bütün şəhər yeriyir,
Bakı, sabahın xeyir!..

Nəqərat:
Hörüklərin qaradır,
Qaşların ayparadır.
O, bir aləm yaradır,
Hamı ürəkdən deyir:
Bakı, sabahın xeyir!..

Xumarlanır göy ləpələr
Üzür nəğməli şəhər,
Sevgilim səhər-səhər
Zər şəfəqdən don geyir,
Bakı, sabahın xeyir!

Nəqərat:
Hörüklərin qaradır,
Qaşların ayparadır.
O, bir aləm yaradır,
Hamı ürəkdən deyir:
Bakı, sabahın xeyir!..

# TƏKCƏ ÜMİD QALSIN

Sözləri Nəbi Xəzrinindir




dən gü - lüş - lə - ri - ni. Al mən - dən öm rüm -
mf
də ə - bə - di qa - lan gö - rüş - lə - ri - ni. Al mən -
dən al mən - dən ə - bə - di qa - lan gö - rüş - lə - ri -
mf
Nəqərat
f
ni. Sən - siz gü - nəş - siz - dir
f


bu göy, bu tor - paq.
ff
f
Sən-siz gü-nəş - siz - dir bu göy, bu tor -
Hər nə - yi is - tə - sən al mən - dən gö -
f
1.
paq.
7
2.
zəl. Tək ü - mid qoy qal-
p
sın. Ü - mid bir dün-ya - lıq gü - lüş - lə - rin - dir. Tək ü -


mid qoy qal - sın, o a - ni, ə-bə-di gö-rüş - lə-rin-
p
dir. Fə-qət so- yuq bax - ma,
1.
2.
sən gen- dən gö - zəl. zəl.
Son üçün
zəl.
pp

İstəsən sükuta bürünsün cahan,
Heç nə yox, al məndən gülüşlərini.
Al məndən ömrümdə
Əbədi qalan görüşlərini.
Al məndən, al məndən
Əbədi qalan görüşlərini.

Nəqərat:
Sənsiz günəşsizdir
Bu göy, bu torpaq.
Hər nəyi istəsən,
Al məndən, gözəl,
Tək ümid qoy qalsın.
Ümid bir dünyalıq gülüşlərindir.
Tək ümid qoy qalsın.
O ani, əbədi görüşlərindir.
Fəqət soyuq baxma
Sən gendən, gözəl.

Al geri o əziz günləri məndən,
Sədaqət andını al geri məndən.
İstəsən, al məndən
Yaşıl meşələrin pıçıltısını,
İstəsən, al məndən
Dənizin parıltısını.

Nəqərat:
Sənsiz günəşsizdir
Bu göy, bu torpaq.
Hər nəyi istəsən,
Al məndən, gözəl,
Tək ümid qoy qalsın.
Ümid bir dünyalıq gülüşlərindir.
Tək ümid qoy qalsın.
O ani, əbədi görüşlərindir.
Fəqət soyuq baxma
Sən gendən, gözəl.

# QƏLBİMDƏ QALDIN

sözləri Nəbi Xəzrinindir




dı. Heç ya-na get - mə-din sən yer ü-zün-dən
bəs ni-yə yer ü-zü bir-dən bo-şal-dı
bir-dən bo-şal-dı, yer ü-
zü bo-şal-dı.
Nəqərat
